# Tarix dərsliklərində əyani materiallar

**Pəri Hikmət qızı Ağayeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** peri.ava.94@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. M.M. Əmirov,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** nəticələrin təhlili, sxem çəkmə, diaqramdan istifadə, üsul və vasitə
**Ключевые слова:** анализ результатов, построение схем, использование диаграмм, методы и средства
**Key words:** analysis of results, plotting, use of diagrams, methods and tools

Ümumtəhsil sistemində tətbiq edilən fənlər və o fənlər sırasına daxil olanlardan biri də Azərbaycan tarixidir (3). Azərbaycan tarixi üzrə hazırlanmış fənni kurikulumu təlimi sahəsində şagirdlərə lazım olan fəaliyyətləri ümumuilikdə özündə əks etdirən konseptuallığı ilə seçilən sənəddir. Hazırlanmış tarix kurikulumuna aid sənəd fənnin məzmunu, hər bir məzmuna aid olan standartları özündə birləşdirir. Təkcə bu deyil, fənnin öz daxilində baş verən və digər fənlər arasındakı inteqrasiya üçün yaradılacaq imkanları, onun texnologiyalarını, müəllim və şagird fəaliyyətini tənzimləyən, şagirdlərdə yüksək səviyyədə biliklər, bacarıqlar üçün imkan yaradan forma və üsullara dair məsələləri əhatə edir. Qədimliyi ilə fərqlənən Azərbaycan tarixi zəngin keçmişi ilə şagirdlərin öyrənməsinə və maraq dünyasına səbəb olan materiallarla əhatələnir. Bütün faktların, hadisələrin öyrənilib araşdırılması təbii ki, mürəkkəb və şagirdlərin yüklənməsinə səbəb ola biləcək proses ola bilər. Azərbaycanımızın tarixini bilmək, onun tarixi dəyərlərinə sahiblənmək, keçmişimizi bilib gələcəkdə qarşımıza çıxan maneələri dəf etmək üçün daha dəqiq, mənbələrə dayanan faktları araşdırmaq, öyrənmək zəruri məqamlardandır.

2011-ci ildə etibarən Azərbaycan tarixindən hazırlanmış fənn kurikulumunun ictimaiyyətə təqdim edilmişdir (3). Kurikulum sənədi hazırlanarkən Azərbaycanın dünəni və bu gününü əhatə edən tarixinə dair bütün məlumatların, əsasən də, baş vermiş proseslərin zamana görə xronoloji ardıcıllıqla düzülməsi və ona uyğun məzmuna dair standartların hazırlanmasında diqqətdə saxlanılması əsas götürülmüşdür. Lazımı biliklər seçilmiş, ümumiləşdirilərək tarixi məkan, tarixi zaman, dövlət, şəxsiyyət, mədəniyyət məzmun xətləri üzrə qruplaşdırılmışdır.

Azərbaycan tarixinə uyğunlaşdırılmış və ona uyğun hazırlanmış standartları seçərkən şagirdlərə lazım olan və gələcək həyatlarında istifadə edə biləcəkləri tarixi məlumatların, tarix fənninə uyğun fəaliyyətlərin hərtərəfli, yəni idrakın inkişafına, düşünməyə, təhlil etməyə, psixomator olaraq fəaliyyətlərin aşlanması ilə ünsiyyəti inkişaf etdirməyə istiqamətləndirilməlidir. Tarixi dövrlərə, məlumatlara uyğunlaşdırılmış kurikulumlar hazırlanarkən fəaliyyətlər də müəyyənləşdirilmişdir ki, bu da tətbiqin daha rahat və işlək şəkildə olmasına şərait yaratmış olur.

Azərbaycan tarixinə aid məzmun standartları deklarativ, yəni məlumata əsaslanan materiallarla yanaşı, prosedural, eləcə də kontekstual biliklərin ötürülməsini də diqqətdə tutmuşdur (6, s.72). Şagirdlərin bu vasitə ilə praktik olaraq fəaliyyət sisteminə cəlb edilməsi, xəritələrlə, şəkil və illustrasiyalarla işə, tədqiqatçı olmağa imkan açmışdır. Tarixdə digər lazım olan bacarıqlar, sxem, qrafik, diaqram və müxtəlif tipli cədvəllər hazırlamasını şagirdlər üçün əsas gö-

türərək, onların yaradıcılıq potensiallarını artırılması üçün imkanlar açmışdır.

Kurikulum sənədini araşdırarkən görürük ki, "məzmun standartları, təlim strategiyaları və qiymətləndirmə mexanizmləri hazırlanarkən şagird şəxsiyyətinin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmışdır"(5). Birinci olaraq şagirdlərin maraqları, meyl və istəkləri, zehni və ümumi fiziki imkanları əsas kimi götürülmüşdür.

Hazırlanmış Azərbaycan tarixi fənn kurikulumu cəmiyyətdə baş verən sosial, eləcə də iqtisadi dəyişikləri nəzərə almaqla mədəni dəyişiklikləri də diqqət mərkəzində tutmuşdur. İqtisadi proseslərin üstünlük təşkil etdiyi bir dövrdə elmin, təhsil və bacarıqların üstün statusda olmasını nəzərə almaqla standartlar müəyyənləşdirilmiş, texnologiya sahəsində durmadan artan elmi yeniliklərin və onların tətbiqinin həyatımızın bir parçasına çevrilməsi mənəviyyata təsir edən amil kimi göstərilmişdir (4, s. 12).

Kurikulumda fənnin məzmunu nəticəyönümlü yanaşma əsasında müəyyənləşdirilmişdir. Bu, o deməkdir ki, hər təhsil səviyyəsi üzrə ümumi təlim nəticələrinin nəzərə alınması əsasında həmin səviyyə üçün xarakterik olan, bu səviyyə üçün nəzərdə tutulan bilik və bacarıqların formalaşmasına xidmət edən məzmun müəyyənləşdirilir. Kurikulum tərtib olunarkən şagirdlərin qabiliyyətlərinin əhatə olunmasına cəhd göstərilmiş, diqqət çəkən məqamlarına toxunulmuşdur. Bu, kurikulumda öz ifadəsini ümumi təlim nəticələri, sinif üzrə təlim nəticələri və bunların yerinə yetirilməsini təmin edən alt standartlar, habelə şagird nailiyyətlərini əks etdirən standartlar sistemində tapmışdır. Tarix fənninin köməyi ilə şagirdlərin düşüncəsinə, müqayisəli təhlillər aparmasına yardım etmək olar. Dövrün islahatları, kurikulumun tətbiqi tarix fənninin tədrisinə yanaşmada bir qədər dəyişikliklərlə özünü göstərmişdir. Müasir dərsliklər, kurikulum standartlarına uyğunlaşdırılmış metodik tövsiyələr zaman və məkan anlayışını təkcə hafizənin köməyi ilə öyrənməyə yox, fəaliyyətə cəlb olunmaqla təfəkkürü inkişaf etdirməyə, eləcə də psixomotor bacarıqları önə çəkib inkişaf etdirməyə istiqamətlənmişdir.

Dərsliklərin təhlili zamanı standartlara uyğun hazırlanmış mövzular şəkillərlə, sxem və cədvəllərlə əhatələnərək şagirdlərin əyani şəkildə öyrənməsinə imkanlar açmış olur. Dərslik kompleksinin hazırlanması üçün əsas götürülmüş məqamlardan biri məzmun standartların dərslikdə verilmiş materiallar əsasında öz əksi tapmasıdır. Azərbaycan tarixi dərslikləri təhlil olunarkən müəyyən edildi ki, bütün mövzularda standartlara uyğun materiallar yerləşdirilmişdir ki, bu da şagirdlərin mənbələr əsasında əyani vasitələrin köməyi ilə əlaqəli suallara cavab tapmasına şərait yaratmış olur.

Verilmiş materialllar şagirdlərin bu istiqamətdə əldə etdikləri biliklərin bacarıqlar şəkildə üzə çıxarılması üçün əsas müvəffəqiyyətdir. Müəllimlər bu prosesdə uyğun materialları seçmək və bu materiallardan istifadə etməyin düzgünlüyü üçün məsuliyyət daşıyırlar. Şagirdlərin sosial tədqiqatlara, tarixə maraq və onun yüksək səviyyədə mənimsənilməsi nailiyyətlərinə nail olmaq üçün effektiv təlim strategiyaları seçmək müəllimin mühüm işidir.

"Azərbaycan qədim ölkədir", "Azərbaycanda alt paleolit dövrü", "Azərbaycan orta və üst paleolit dövründə", "Mezolit dövrü", "Neolit inqilabı", "Eneolit dövrü", "Tunc və dəmir dövrləri" və bu kimi mövzuların şəkil, illustrasiya, sxem və cədvəllərlə əhatələnməsi şagirdlərin mövzuları yüksək səviyyədə öyrənməsinə şərait yaradır. Azərbaycanın ən qədim dövlətləri adlı tədris vahidində qədim dövlətlərimiz olan Manna, Atropatena, Albaniya kimi dövlətlərin yaranması və siyasi arenadakı rolu barədə mövzular işlənib şagirdlərə təqdim edilmişdir. Bu mövzuların işlənməsi zamanı dövlətlərin yerləşdiyi məkanlar sözlə təsvir olunmaqla yanaşı xəritələrin verilməsi ilə də tamamlanmışdır. Şagirdlərin məkan haqqında təsəvvürlərində tamlıq yaratmaq üçün xəritə ən önəmli reaurslardan biridir. Dərslikdə bu cür resursun yerləşdirilməsi öyrənmə prosesini daha da keyfiyyətli şəkildə önə çıxarır.

Feodal münasibətlərin yaranması və inkişaf etdiyi bir dövrdən başlayraq Azərbaycan tarixinə dair əsas məsələri mövzuların köməyi ilə xronoloji ardıcıllıqla təqdim etmişlər. "Feodal münasibətlərinin inkişafı", "Cavanşir", "Babək" (4) və s. bu kimi mövzular başlığı altında məsələlərə aydınlıq gətirərkən standartlar öz real əksini tapa bilmişdir. Bu dərslikdə də verilmiş xəritələr, döyüş sxemləri və bu kimi öyrədici vasitələr hadisələrin hansı zamanda və harada baş verməsi sualına cavab tapmağa imkan verir. Şagirdlərin bu istiqamətdə araşdırma aparması üçün sual və tapşırıqların daha zəngin şəkildə verilməsi təlim nəticələrinə çatılması üçün şərait yaratmış olur.

Dərsliklərdə təqdim edilmiş şəkillər, sxem və cədvəllər, eləcə də diaqramlar şagirdlərin öyrənmə tərzinə müsbət təsir göstərməklə keyfiyyətin yüksəldilməsinə öz təsirini göstərməkdədir. Psixamotor bacarıqlarla yanaşı idrakı fəaliyyət yaradan dərslikdəki əyanilik öz səmərəsini şagirdlərdən əldə edilən nəticələrdə göstərir.

**Məqalənin aktuallığı.** Azərbaycan tarixi üzrə hazırlanmış fənni kurikulumuna aid sənədin fənnin öz daxilində baş verən və digər fənlər arasındakı inteqrasiya üçün yaradılacaq imkanları, onun texnologiyalarını, müəllim və şagird fəaliyyətini tənzimləyən, şagirdlərdə yüksək səviyyədə biliklər, bacarıqlar üçün imkan yaradan forma və üsullara dair məsələləri əhatə etdiyini, məqalədə də məhz bu kimi problemlərə toxunulduğunu nəzərə alsaq, onu aktual hesab etməliyik.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat işinə əsasən əldə edilmiş nəticələr tarix fənninin tədrisi prosesi üçün geniş nəzəri və praktik materiallarla zənginləşməsinə şərait yaradacaq.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ümumtəhsil müəssisələrində tarixin tədrisi zamanı şagirdlərdə dərsliklərdəki əyani vasitələrdən istifadə nəticəsində formalaşdırılması sisteminə dair zəngin materiallar, dərs prosesində onun tətbiqinin metodikasına, tarix müəllimlərinə, bakalavr səviyyəsində dərs deyən müəllimlərə şərait yaradacaq.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında Ümumtəhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı, 2006.

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.// Azərbaycan məktəbi, 2013, № 5.

3. Azərbaycan tarixi fənn kurikulumu. Kurikulum jurnalı. 2011, № 3.

4. Azərbaycan tarixi. 5-ci siniflər üçün dərslik. Bakı.Təhsil 2016.

5. Hüseynov R., Mehdiyeva N. Məktəbdə tarix tədrisinin perspektivləri. "Tarix, insan və cəmiyyət" jurnalı, №1(2) Bakı, 2009.

6. Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası, Bakı: 2006, 236 səh.

7. Vagin A.A. Orta məktəbdə tarixin tədrisi metodikası. 1973. s. 318.

8. Məmmədbəyli Ş. Tarix dərslərində əyani vəsaitdən istifadə edilməsinə dair. Bakı: 1960, s. 180.

**П.Х. Агаева**

## Специальные метриалы в исторических уроках

## Резюме

В данной статье представлен обзор использования наглядных материалов в учебниках истории и формирования навыков у студентов на основе наглядных материалов. Использование схем, диаграмм и диаграмм в учебниках было решено с точки зрения создания условий для более глубокого освоения изученных материалов, а также достижения выводов требуемых стандартами.

**P.H. Agaeva**

## Visual materials in history textbooks

## Summary

This article provides an overview of the use of visual materials in history textbooks and the formation of skills in students based on visual materials. The use of schema, charts, and diagrams in the textbooks has been addressed in terms of creating more in-depth knowledge of the materials learned, as well as achieving the standards required.

**Redaksiyaya daxil olub:** 07.11.2019